# Beynəlxalq ictimaiyyət Azərbaycanın ədalətli mübarizəsini müdafiə edir



"Rusiya Kollektiv Təhlükəsizlik Müqaviləsi üzrə öhdəliklərini yerinə yetirərək Ermənistanın müdafiəsinə qalxa bilər, lakin bu öhdəliklər Dağlıq Qarabağa şamil edilmir".

AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə Kremlin mətbuat katibi Dmitri Peskov deyib".

O vurğulayıb: "Təhlükəsizliyin təmin edilməsi baxımından öhdəliklər belədir: əgər KTMT-nin üzvü olan ölkə hər hansı təcavüzə, kənardan hücuma məruz qalarsa, bu halda müqavilə iştirakçıları olan ölkələrin belə dövlətin müdafiəsinə qalxmaq öhdəlikləri var".

Rusiya Federasiyasının hansı halda Dağlıq Qarabağda münaqişə zonasına hərbçilər göndərməyə hazır olması barədə sualın cavabında D.Peskov deyib ki, bu, KTMT çərçivəsində öhdəliklərdən irəli gəlir. Mətbuat katibi vurğulayıb: "Bu halda söhbət Ermənistandan gedir. RF Prezidenti Vladimir Putin bu iki məsələni dəqiq izah edib və onların arasında həddi göstərib, KTMT üzrə öhdəliklər Qarabağa şamil edilmir". Onun sözlərinə görə, Ermənistan ərazisində hansısa döyüş əməliyyatları aparılması barədə məlumat təsdiqlənmir.

❖ ❖ ❖



"Otuz ildir bütün hüquqları tapdalayaraq Dağlıq Qarabağı işğal altında saxlayan Ermənistan sentyabrın 27-də yenidən Azərbaycana hücum edib. Bütün dünyanın bildiyi kimi, Ermənistan uzun illərdən bəri mənimsədiyi təcavüzkar irqçiliyi ilə saxta "erməni soyqırımı" yalanından istifadə edərək sosial-iqtisadi problemlərini və siyasi asılılığını gizlətməyə çalışan, vətəndaşlarını istismar edən bir ölkədir".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AKP) Gənclər Təşkilatının Ermənistanın son təxribatları barədə bəyanatında əksini tapıb.

Türk və ingilis dillərində yayılan bəyanatda deyilir: "Ermənistanın son zamanlar daha da genişləndirdiyi təcavüzkar irqçilik siyasətini qəbul etmək mümkün deyil. Ötən günlər Ermənistanın rəsmi sosial media hesablarında sülh çağırışı etmək əvəzinə bir əlində silah, digər əlində xaç tutan din xadimlərinin çəkdirdikləri fotoların paylaşılması bu təcavüzkar irqçi təfəkkürün bariz nümunəsidir.

Təhlükəsizlik orqanlarından verilən məlumatlara görə, Ermənistan iyulun sonunda ABŞ və Aİ-nin də terror təşkilatı kimi tanıdığı PKK ilə anlaşma əldə edərək 300 PKK/YPG terrorçusunu avtobuslarla Ermənistana və Qarabağa göndərib. Terror təşkilatı PKK/YPG üzvlərinin Dağlıq Qarabağda erməni polislərlə əməkdaşlığının əsla qəbuledilməz olduğunu vurğulayaraq, beynəlxalq ictimaiyyəti terror təşkilatı ilə əməkdaşlıq edən Ermənistanı qınamağa çağırırıq.

Ermənistanın oktyabrın 4-də Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə və mülki əhalini hədəf alan raket hücumları onun əsl simasını bir daha göstərdi. Bu reallıqlara əsaslanaraq bir daha açıq şəkildə bildiririk ki, Ermənistanın yürütdüyü siyasət qətiyyən qəbul edilə bilməz.

Minsk qrupu uzun illərdir ki, bölgədə sülh yaratmaq məsələsində uğursuzluğa düçar olub, Ermənistanın məsuliyyətsiz mövqeyinə və şiddətli hücumlarına səssiz qalıb. Unutmaq olmaz ki, bütün bunları görməməzliyə vurmaq və erməni şiddətinə qarşı birtərəfli siyasət yürütmək bu münaqişəni həll edə bilməz. Türkiyə bölgədə sülhü yenidən təsis etməyin yeganə yolunun sadəcə olaraq Ermənistanın hüquqazidd işğalçılığına son qoyub Dağlıq Qarabağdan çəkilməsi olduğunu açıq şəkildə vurğulamaqdadır.

Ədalət və İnkişaf Partiyasının Gənclər Təşkilatı olaraq qardaş Azərbaycanın və onların qanuni haqlarını daxil olduğumuz bütün beynəlxalq platformalarda hər vəziyyətdə dəstəklədiyimizi bildirmək istəyirik".

❖ ❖ ❖



Niderland parlamentində DENK Partiyasını təmsil edən türkəsilli millət vəkili Tunahan Kuzu Ermənistanın Azərbaycan torpaqlarını dərhal tərk etməsini tələb edib.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan-Türk Mədəniyyət Dərnəyinin rəhbəri İlhan Aşkının təşəbbüsü ilə parlamentdə Ermənistanın Azərbaycanın mülki əhalisini raket hücumuna məruz qoyması məsələsini qaldıran Tunahan Kuzu bölgədən əldə etdiyi görüntülərin həqiqətən dəhşətli olduğunu deyib. O bildirib: "Evlərə bombalar yağdırılır və təəssüf ki, mülki insanlar arasında itkilər var".

İki ölkə arasında gərginliyi azaltmaq və danışıqlar masası arxasına keçmək üçün müxtəlif çağırışların səsləndirildiyini bildirən deputat deyib: "Hərçənd bu çağırışları 27 ildir eşidirik. 27 ildir ki, sözdə danışıqlar masası arxasında görüşlər gerçəkləşdirilir, amma nədənsə günahsız insanların qanı axmaqda davam edir".

Niderlandlı siyasətçi diqqətə çatdırıb ki, iki ölkə arasında gərginliyin azalması barədə çağırışların əməldə gerçəkləşdirilməsi Ermənistanın işğalçılıq siyasəti üzündən baş tutmur. Çünki Ermənistan Azərbaycan torpaqlarının işğalından vaz keçmir. Azərbaycan torpaqlarının 20 faizindən çoxu Ermənistanın işğalı altındadır. Ermənistanın baş naziri Nikol Paşinyan hər açıqlamasında "böyük Ermənistan" xəyalından özünü qurtara bilmədiyi üçün münaqişənin həlli ləngiyir.

Ermənistanın Azərbaycan torpaqlarını tərk etməli olduğunu qeyd edən deputat bildirib: "Azərbaycanın işğal altında olan torpaqlarından Ermənistanın dərhal geri çəkilməsi tələbi beynəlxalq hüquq baxımından tamamilə haqlıdır. Buna görə də təkrar edirəm: Hörmətli sədr! Ermənistan Azərbaycan torpaqlarından dərhal geri çəkilməlidir. BMT-nin Azərbaycanın sərhədlərini tanıyan 4 qətnaməsi var. Hətta 2009-cu ildə Avropa Parlamentinin qəbul etdiyi qərarda Ermənistanın işğal olunmuş torpaqlardan dərhal geri çəkilməsi və məcburi köçkünlərin hüquqlarının bərpası tələb edilib".

Qeyd edək ki, Tunahan Kuzu 1981-ci ildə İstanbulda doğulub. Kiçik yaşlarında ailəsi ilə Niderlanda köçüb və təhsilini orada alıb. 2008-ci ildə Niderlandın İşçi Partiyasından Rotterdam bələdiyyəsinin məclisinə seçilib. 2012-ci ildə həmin partiyanın millət vəkili olaraq Niderland parlamentinin üzvü seçilib. 2015-ci il fevralın 9-da deputat həmkarı Səlcuk Öztürklə birlikdə Niderlandda yaşayan milli azlıqların hüquqlarını qoruyan DENK Partiyasını yaradıb.

❖ ❖ ❖



İran Elmi Hövzələrin rəhbəri, nüfuzlu din xadimi Ayətullah Əlirza Ərafi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar xüsusi bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, bəyanatda Dağlıq Qarabağın Azərbaycana aid olduğu və İslam aləminin Azərbaycanı dəstəkləməli olduğu bildirilib. Diqqətə çatdırılıb ki, Azərbaycan dünyaya görkəmli elm, mədəniyyət və din xadimləri bəxş edib.

Bütün beynəlxalq sənədlərdə Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz ərazisi kimi tanınır. Odur ki, Dağlıq Qarabağ Azərbaycana qaytarılmalıdır. Sovet İttifaqı 70 il ərzində Azərbaycan əhalisinin islam dininə inancını sarsıda bilmədi. İranın elmi hövzələri, onun tələbələri və ustadları Azərbaycanın yanında olmalı, onu dəstəkləməlidirlər.

İran ilə Azərbaycan arasındakı dostluq və qardaşlıq münasibətlərinin hökm sürməsindən narahat olan qüvvələrin təfriqə yaratmasına imkan verilməməlidir. Bu gün müsəlmanların dini və əxlaqi vəzifələri fitnələrə uymamaq, Azərbaycanın ərazi bütövlüyünü müdafiə etməkdən ibarət olmalıdır. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bəzi xarici qüvvələr İran ilə Azərbaycan arasındakı əlaqələri korlamaq və "bulanıq suda balıq tutmağa" cəhd edirlər. Lakin xalqların ayıq-sayıqlığı buna əsla imkan verməyəcək. Ortaq mədəniyyətə, tarixə və dini dəyərlərə malik xalqlarımız arasında nifaq salmaq mümkün olmayacaq.

❖ ❖ ❖



Azərbaycanın və Ermənistanın tarixini çox dərindən təhlil etmək lazımdır. Ermənilər tarix boyu qətliamlar törədiblər. Onlar 1918-ci ildə Azərbaycanın paytaxtı Bakıda 10 minə yaxın insanı qətlə yetiriblər və bu, tarixi sənədlərdə öz əksini tapıb. Erməni muzdluları tərəfindən insanlar məscidlərə doldurularaq qətlə yetirilib. O qətliamları törədən də Şaumyandır. Tarixdə baş verən bu hadisə Bakını yerlə bir edib. Yaxın tarixdə də bunlar baş verib. 1990-cı ildə Sovet ordusunun dəstəyi ilə ermənilər Bakıda 400-ə yaxın insanı qətlə yetiriblər. Hətta eyvanda paltar asan qadını da öldürüblər. Küçədə gəzən gənclərin üstündən tanklarla keçiblər. Azərbaycanın Şəhidlər xiyabanına girərkən hansı millətdən olmağından asılı olmayaraq, ağlamadan çıxmaq mümkün deyil. Türklər tarixdə şəhidi çox olan bir millətdir. İmperialist dövlətlərin oyununa qoşulan ermənilər isə tarix boyu qətliamlar törədiblər. İşğal altındakı torpaqlar Azərbaycanındır. Hazırda Azərbaycan Ordusu Qarabağda qəhrəmanlıq nümayiş etdirir. Bu bölgənin tarixi əhalisinin sayına baxdıqda 1910-1915-ci illərdə burada yaşayanların 80 faizinin türk mənşəli olduğunu görürük. Sonralar oradakı türklər Azərbaycanın fərqli bölgələrinə köçməyə məcbur ediliblər. Erməni zülmündən qaçmaq üçün köçüblər. Hətta o zaman bir çox ailələr tamamilə məhv edilib. Dağlıq Qarabağ Azərbaycan torpağıdır. Azərbaycan Prezidenti İlham Əliyev başlatdığı bu mübarizədə tamamilə haqlıdır və onun bu zəfərini alqışlamaq lazımdır.

AZƏRTAC xəbər verir ki, bu sözləri Anadolu Agentliyinə müsahibəsində Türkiyənin Atatürk Universitetinin Türk-Erməni Əlaqələri Araşdırma Mərkəzinin müdiri, professor Erol Kürkçüoğlu deyib.

Professor "Ermənilərin türklərə qarşı törətdikləri qətliamlar tarixi mənbələrdə" mövzusunda müsahibəsində bildirib: "Tarixi mənbələrdə ermənilərin türklərə, o cümlədən Birinci Dünya müharibəsi dövründə silahsız mülki əhaliyə qarşı törətdikləri qırğınları aşkar edilən kütləvi məzarlıq isbatlayır. Qazıntılar zamanı əldə edilən maddi sübutlar müsəlmanların erməni birləşmələri tərəfindən insanlığa sığmayan işgəncələrlə qətlə yetirildiyini göstərir. Tarix səhnəsində adı soyqırımlarla müşayiət olunan Ermənistan işğal olunmuş ərazilərini müdafiə edən Azərbaycanın mülki əhalisinə qarşı da eyni şəkildə davranır. Ermənilər tarix boyu xaricdən aldıqları güclə türk millətinə qarşı saysız-hesabsız qətliamlar törədiblər. Osmanlı imperiyası zamanı da "millet-i sadıka" (sadiq millət) adlandırılan ermənilər buna xəyanətlə cavab veriblər".

Ermənilərin 1828-1829-cu illərdə Rusiya ilə ittifaqını xatırladan professor deyib: "Bu ittifaqın ardından erməni terror qruplaşmaları qətliamlar törətməyə başladılar. Baxın, onlar hər zaman günahsız insanları öldürüblər. 1877-1878-ci illərdə baş verən müharibədə belə ermənilərin xəyanətindən bəhs edilir. Ərzurumda sığınacaqlı müdafiə postlarının dağılması da ağır nəticələr verib. Birinci Dünya müharibəsində də Anadolunun hər yerində tarixi sənədlərlə tanınan 519 min mülki vətəndaş qətliamların qurbanı olub. Onlar müharibə ilə heç bir əlaqəsi olmayan insanları qətlə yetiriblər. Rus komandir Tverdoxlebov xatirələrində yazır: "27 fevral gecəsi ermənilər yanıma gəldilər. Karsqapı bölgəsində 3 min müsəlman türkünü öldürdüklərini ələ salaraq danışdılar. O zaman günahsız insanların öldürülməsinin bir vəhşilik olduğunu dediyimdə cavab olaraq mənə "Siz russunuz, erməni millətinin xəyallarını anlaya bilməzsiniz", - deyə cavab verdilər".

❖ ❖ ❖


ICYF

STATEMENT

"İslam Əməkdaşlığı Təşkilatının Gənclər Forumunun (İƏGF) İdarə Heyəti Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Ordusuna və ölkənin mülki yaşayış məntəqələrinə qarşı cəbhəboyu və təmas xəttindən kənarda davam edən genişmiqyaslı təxribat və təcavüzünü qətiyyətlə pisləyir. Ermənistanın hazırkı hücumları, xüsusilə Azərbaycanın ikinci böyük şəhəri olan Gəncədə mülki əhalini hədəf alması bütün bölgənin sabitliyini pozmaq və Ermənistan-Azərbaycan münaqişəsinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı çərçivəsində, habelə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi (822, 853, 874, 884) və İƏT-in müvafiq qərarları əsasında həllinə mane olmaq kimi qəbul edilməlidir".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Ermənistan silahlı qüvvələrinin Azərbaycan Ordusuna və Azərbaycan Respublikasının mülki yaşayış məntəqələrinə qarşı cəbhəboyu davam edən təcavüzü və təxribatlarına dair İslam Əməkdaşlığı Təşkilatının Gənclər Forumunun İdarə Heyətinin qəbul etdiyi bəyanatda ifadə olunub.

Bəyanatda deyilir: "Ermənistan silahlı qüvvələrinin cəbhə bölgəsi xaricindəki ərazilərə də aid olan Azərbaycan şəhərlərinə son hücumları 1988-ci ildən bəri Ermənistanın qanunsuz münasibətinin yeni bir nümunəsidir. Ermənistanın Azərbaycan Respublikasına hərbi təcavüzü işğala məruz qalan tərəfin ərazisinin 20 faizinin qəsb edilməsi ilə nəticələnib, Azərbaycan beynəlxalq hüquq prinsipləri ilə müəyyən edilmiş və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin, suverenliyinin və ərazi bütövlüyünün pozulmasıdır".

İƏGF-nin İdarə Heyəti BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə və İslam Əməkdaşlığı Təşkilatının Sammit və Xarici İşlər Nazirləri Şurasının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qərarlarına və qətnamələrinə istinad edərək Ermənistan silahlı qüvvələrinin dərhal və qeyd-şərtsiz çıxarılmasının vacibliyini qeyd edir. Erməni işğalının sona çatması, şübhəsiz ki, bütün bölgədə uzunmüddətli sülhün və sabitliyin qurulması üçün kritik əhəmiyyətə malik olacaqdır. İƏGF-nin İdarə Heyəti həm bölgədə məskunlaşan, həm də münaqişə səbəbiylə köçkün olan azərbaycanlı gənclərin gələcəyi üçün bölgədəki sülh və asayişin qayğısına qalır.

İƏGF-nin İdarə Heyəti bir daha Ermənistanın Azərbaycana təcavüzünü pislədiyini ifadə edərkən Azərbaycan xalqı ilə həmrəy olduğunu bildirir və şəhid ailələrinə başsağlığı verir, yaralananların tezliklə şəfa tapmasını arzulayır.

❖ ❖ ❖



Türkiyənin Kocaeli vilayətinin Gölcük Bələdiyyəsi oktyabr toplantısında son günlər davam edən erməni təxribatları ilə bağlı bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, Gölcük Bələdiyyəsində qeydiyyatda olan bütün siyasi partiya təmsilçilərinin imzaladığı bəyanatda deyilir: "Ermənistan silahlı qüvvələri tərəfindən sentyabrın 27-dən başlayaraq Azərbaycanın Dağlıq Qarabağ bölgəsində və digər bölgələrində atəşkəsin pozulmasını, həmçinin ağır silahlardan istifadə edilməklə Azərbaycanın yaşayış məntəqələrinin və hərbi birləşmələrinin hədəfə alınmasını şiddətlə qınayırıq. Son təxribatlar bir daha sübut edir ki, bölgədə sülhə və əmin-amanlığa ən böyük manеə Ermənistandır. Biz beynəlxalq hüquqdan irəli gələn özünümüdafiə hüququ çərçivəsində xalqını və ərazi bütövlüyünü qoruyan Azərbaycanı bu haqlı mübarizəsində tam dəstəkləyirik. Otuz ilə yaxındır ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsi Ermənistanın işğalı altındadır. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası və ATƏT-in qərarlarına uyğun olaraq bu haqsız işğala son qoyulmasını tələb edirik. Beynəlxalq ictimaiyyəti bu günə qədər Ermənistanın işğalı və hücumlarına məruz qalan Azərbaycanın yanında olmağa dəvət edirik.

Gölcük Bələdiyyəsi Məclisinin siyasi partiya üzvləri kimi baş verən bu hadisələr zamanı şəhid olan azərbaycanlı qardaşlarımıza Allahdan rəhmət, qazilərimizin isə tezliklə sağalmalarını diləyir, millətimizin həmrəylik iradəsini bir daha vurğulayırıq".

❖ ❖ ❖



"Azərbaycan Ordusunun döyüş meydanında qazandığı hər bir uğur təcavüzkar Ermənistanı tam məğlubiyyətə yaxınlaşdırır. Hesab edirəm ki, Ermənistan işğalçı siyasətindən əl çəkməyə məhkumdur. Onun başqa seçimi yoxdur".

AZƏRTAC xəbər verir ki, bu fikirlər misirli ekspert, tədqiqatçı-jurnalist, "Qarabağ: Sülhə aparan yol" kitabının müəllifi Əhməd Əbdo Tərabikin "Alwasela" nəşrində dərc olunmuş məqaləsində yer alıb.

Məqalədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi və səbəbləri barədə ətraflı məlumat verilib. Qeyd edilib ki, ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə uzun illərdir davam edən danışıqlarda qeyri-konstruktiv mövqe nümayiş etdirən Ermənistan əslində işğal olunmuş torpaqlarda möhkəmlənmək, qeyri-qanuni məskunlaşdırma siyasəti apararaq həmin ərazilərin ilhaqı niyyətini güdüb. Lakin işğalçı ölkənin rəhbərliyi zamanın məhz güclü iqtisadiyyata və qüdrətli orduya malik olan Azərbaycanın lehinə işlədiyi barədə politoloqların rəylərinə də məhəl qoymayıb. Son günlər azərbaycanlıların Qarabağ cəbhəsində böyük uğurları göstərdi ki, Ermənistanın işğal etdiyi ərazilərdən öz qoşunlarını çıxarmaqdan başqa çarəsi qalmayıb.

Misirli ekspert vurğulayıb ki, münaqişəyə dair bütün beynəlxalq sənədlər, beynəlxalq hüquq Azərbaycanın tərəfindədir. Azərbaycanlılar öz ərazilərini işğaldan azad etmək üçün öz torpağında döyüşürlər və heç bir beynəlxalq təşkilat, heç bir ölkə Ermənistanın işğalçı siyasətinə haqq qazandıra bilməz.

Ermənistanın baş naziri Paşinyanın qondarma "Dağlıq Qarabağ respublikası"nı tanıyacağı barədə bəyanatına da toxunan Tərabik yazıb ki, bu, öz xalqını fəlakətə düçar etmiş naşı siyasətçinin növbəti ciddi səhvidir.

❖ ❖ ❖


STATEMENT

Çikaqo şəhərində fəaliyyət göstərən Amerikanın Orta Qərb Ştatları üzrə Azərbaycan Mərkəzi qəsbkar Ermənistanın ölkəmizə qarşı son hücumlarını sərt şəkildə pisləyib.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, mərkəzin prezidenti Fərid Məmmədovun imzası ilə yayılmış bəyanatda dünyanın qorxunc koronavirus pandemiyası ilə mübarizə apardığı dönəmdə Ermənistan silahlı qüvvələrinin iyulun 12-də Tovuz rayonunda, sentyabrın 27-də isə bütün cəbhə boyu təxribatlar törətməsi, Azərbaycanın Dağlıq Qarabağdan uzaqda yerləşən şəhərlərini, mülki yaşayış məntəqələrini və obyektlərini raket atəşinə tutması bu ölkənin faşist və təcavüzkar mahiyyətini göstərdiyini vurğulayıb.

Soydaşlarımız dünya birliyini Ermənistanın təcavüzkar siyasətinə son qoyulması, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi üçün qətiyyətli addımlar atmağa çağırıblar.

❖ ❖ ❖




"İsveçrə Kaset Silahlarına dair Konvensiyanın (CCM) sədri qismində Dağlıq Qarabağ münaqişəsində kaset bombaların istifadəsindən çox narahatdır".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Kaset Silahlarına dair Konvensiyanın (CCM) İsveçrə sədrliyinin yaydığı bəyanatda yer alıb.

Bəyanatda hər bir münaqişə tərəfini beynəlxalq humanitar hüquqa tam hörmət göstərməyə, mülki şəxslərə və mülki obyektlərə fərq qoymadan zərbə vuran və qeyri-mütənasib şəkildə təsir göstərən kaset bombalarının istifadəsindən çəkinməyə çağırıb.

İsveçrə Konvensiyanın qüvvəyə minməsindən 10 il sonra kaset döyüş sursatlarının istifadəsinin davam etməsinə təəssüfünü bildirib, belə bombaların törədəcəyi insan tələfatından narahat olaraq, bu silahların istifadəsini pisləyir və bütün dövlətləri Konvensiyaya qoşulmağa çağırır.

Xatırladaq ki, Ermənistan son günlər Azərbaycanın mülki zonalarına, insanların sıx yaşadığı şəhərlərə hücumlarda məhz kaset bombalardan istifadə edib.

❖ ❖ ❖



Son günlər Ermənistanın başlatdığı hərbi təcavüz fonunda məqsədyönlü şəkildə Azərbaycanın ərazisində yerləşən beynəlxalq neft-qaz, nəqliyyat layihələrini hədəfə alması ilə əlaqədar Azərbaycanın İsveçrədəki səfiri Xanım İbrahimovanın Dəmiryolu ilə Beynəlxalq Yük Daşımaları üzrə Hökumətlərarası Təşkilatın (OTİF) Baş katibi Volfqanq Küpper ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, səfir X.İbrahimova ilk öncə Ermənistan silahlı qüvvələrinin atdığı mərmilərin neft-qaz kəmərlərinin yanına düşməsi faktları barədə məlumat verərək Ermənistanın bu təcavüzkar aktının regional təhlükəsizliyə təhdid olduğunu qeyd edib və Azərbaycan ərazisindəki yerli və beynəlxalq əhəmiyyətli dəmiryolu xətlərinin də təhlükədə olmasını diqqətə çatdırıb. Bu xüsusda səfir OTİF tərəfindən Ermənistanın təcavüzkar siyasətinin pislənilməsi üçün çağırış edib.

OTİF Baş katibi Volfqanq Küpper Ermənistan və Azərbaycan arasında gedən döyüşlər barədə ciddi narahatlığını ifadə edərək, regionda tezliklə sülhün bərqərar olunacağına ümidvar olduğunu qeyd edib. Bundan əlavə, o, Azərbaycanın OTİF üçün regionda çox vacib və strateji ölkə olduğunu diqqətə çatdırıb və ölkəmizin ərazisindən keçən dəmir yollarının təhlükəsizliyinin təmin edilməsinin təşkilat üçün vacibliyini vurğulayıb.

Sonra qeyd olunub ki, Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobudcasına pozaraq və növbəti təcavüzə əl ataraq Azərbaycan Ordusunun cəbhəyanı bölgələrdə yerləşən mövqelərini intensiv şəkildə atəşə tutub və nəticədə mülki əhali və hərbi qulluqçular həlak olub, eləcə də mülki obyektlərə ciddi ziyan dəyib. Ermənistanın hərbi təcavüzünün hələ də davam etdiyini qeyd edən səfir BMT Nizamnaməsinin müvafiq maddəsinə uyğun olaraq özünümüdafiə prinsipi əsasında Azərbaycan Ordusunun ərazilərimizi və əhalimizi qorumaq məqsədilə əks-hücuma keçdiyini və cavab tədbirləri gördüyünü vurğulayıb.

Paşinyanın 2018-ci ildə hakimiyyətə gəlməsindən sonra Ermənistanın təxribat xarakterli fəaliyyəti barədə faktları bir-bir sadalayan səfir baş nazir Paşinyan tərəfindən atılan bu addımların, həqiqətə əsaslanmayan və düşünülməmiş bəyanatların və son aylarda Ermənistan tərəfindən həm iki ölkə sərhədində, həm də təmas xəttində hərbi təcavüzün başladılmasının ATƏT-in Minsk qrupu çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı illərdir aparılan danışıqları iflic vəziyyətə saldığını V.Küpperin diqqətinə çatdırıb.

Sonda səfir işğal edilmiş ərazilərimizin xəritəsi əsasında Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi təcavüzkar siyasəti barədə Volfqanq Küpperə izahedici təqdimat edib.

❖ ❖ ❖



Oktyabrın 7-də Azərbaycanın Kiyevdəki səfirliyində xarici ölkələrin Ukraynadakı hərbi attaşelik aparatının nümayəndələrinə Ermənistanın hərbi təxribatına, müharibə cinayətlərinə qarşı ordumuzun həyata keçirdiyi əks-hücum əməliyyatı barədə ətraflı məlumat verilib.

Azərbaycan Silahlı Qüvvələrinin Ukraynadakı hərbi attaşesi, polkovnik İlqar Ağayev görüşdə çıxış edərək bildirib ki, sentyabrın 27-də erməni silahlı birləşmələrinin cəbhə xəttindəki təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu cəbhəyanı yaşayış məntəqələrinin təhlükəsizliyini təmin etmək və işğal altındakı əraziləri azad etmək üçün əks-hücum əməliyyatına başlayıb.

Hərbi attaşelərə bu günədək davam edən əks-hücum əməliyyatları nəticəsində azad olunmuş ərazilər haqqında məlumat verilib. Bununla bağlı edilən videotəqdimatda Dağlıq Qarabağ münaqişəsinin yaranma səbəbləri, Ermənistanın mülki insanlarımızı qətlə yetirməsi, böyük, strateji şəhərlərimizin raket hücumuna məruz qalması, Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatı və digər məsələlər əksini tapıb.

İlqar Ağayev vurğulayıb ki, Ermənistan Livandan, Suriyadan muzdlu döyüşçüləri və terrorçuları hərbi əməliyyatlara cəlb edib. Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn, o cümlədən beynəlxalq humanitar hüququn əsas norma və prinsiplərini, habelə Ermənistanın müvafiq beynəlxalq öhdəliklərini pozaraq, Azərbaycanın mülki əhalisini və infrastrukturunu qəsdən hədəfə alır. Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində oktyabrın 7-si saat 12:00-a olan məlumata görə, həlak olmuş şəxslərin sayı 28-ə, xəsarət alanların sayı isə 144-ə çatıb. Bundan başqa, Ermənistan ordusunun intensiv ağır artilleriya atəşi və raket hücumları nəticəsində 427 evə və 66 mülki obyektə ciddi ziyan dəyib.

Həmçinin vurğulanıb ki, Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə, sənaye şəhəri Mingəçevir, Tərtər, Bərdə, Ağcabədi şəhərləri, habelə Xızı və Abşeron rayonlarında əhalinin sıx məskunlaşdığı yaşayış məntəqələri və böyük əhəmiyyətli infrastrukturunun Ermənistan ərazisindən məqsədyönlü şəkildə raket hücumlarına tutulması hərbi əməliyyatlar zonasını genişləndirmək və münaqişəyə üçüncü ölkələri cəlb etmək məqsədi güdən təxribatdır.

Məlumat verilib ki, bu gün ərzində Azərbaycan Ordusu müəyyən olunmuş istiqamətlərdə irəliləyərək yeni dayaq məntəqələrini azad etməklə ərazini düşmən qüvvələrindən təmizləyib. Döyüşlərdə düşmənin xeyli sayda canlı qüvvəsi, hərbi texnikası və digər döyüş vasitələri məhv edilib. Sentyabrın 27-dən oktyabrın 7-si saat 05:30-dək düşmənin 250-dək tank və digər zirehli texnikası, 270-dək artilleriya, yaylım atəşli raket sistemləri, minaatan, 60-dək hava hücumundan müdafiə vasitəsi, 11 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi, 8 silah-sursat anbarı, 150-dək avtomobil texnikası, 1 ədəd "S-300" zenit-raket kompleksi məhv edilib.